# Su TAO: "Viza tələbinin ləğvi Çin və Azərbaycan xalqları arasında daha dərin mübadiləyə səbəb olacaq"

"Bu ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri zamanı Çin ilə Azərbaycan arasında bir çox mühüm sənədlər imzalandı. Onlar arasında iki ölkənin vətəndaşlarının qarşılıqlı olaraq vizadan azad edilməsi ilə bağlı çox mühüm saziş var. Bu, Çin və Azərbaycan xalqları arasında daha dərin mübadiləyə səbəb olacaq".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Çin Dövlət Şurası yanında İnkişaf Mərkəzinin Avrasiya Cəmiyyətinin İnkişafı üzrə Tədqiqat İnstitutunun direktor müavini Su Tao iyulun 16-da iki ölkə arasında vizasız səyahət rejiminin qüvvəyə minməsini şərh edərkən deyib.

"Hər kəsə məlum olduğu kimi, Azərbaycan Cənubi Qafqazda zəngin tarixə və mədəni irsə malik ölkədir. Bir çox çinli alimin və ictimaiyyət nümayəndələrinin artıq Azərbaycanın tarixi haqqında müəyyən qədər anlayışı var. Mən özüm də Azərbaycan tarixi, Bakı haqqında maraqlanıram. Hesab edirəm ki, turizm sahəsində əməkdaşlığın gücləndirilməsi xüsusilə vacibdir", - deyən ekspert əlavə edib ki, son illərdə qlobal turizm sənayesi sürətlə inkişaf edir və pandemiyadan sonra Çinin turizm sektorunda da sürətli artım müşahidə olunur.

Çinin dünyanın ən böyük turist mənbəyi olduğunu vurğulayan Su Tao deyib ki, Çin vətəndaşları üçün Azərbaycana səfər etmək, orada insanların necə yaşadığını görmək, onun tarixi abidələrinə heyran olmaq və mətbəxindən dadmaq həqiqətən dəyərli olacaq.

"Mən də daxil olmaqla, bir çox çinli bunu etməyə hazırdır. Mən Mərkəzi Asiya üzrə tədqiqaqtlar aparıram. Azərbaycana çoxdan səfər etməyi düşünürdüm. Elə bu viza siyasətindən faydalanmağı çox səbirsizliklə gözləyirəm və imkanım olanda Azərbaycana səfər etməyi və Bakını kəşf etməyi planlaşdırıram", - deyə çinli ekspert bildirib.

Qeyd edək ki, Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş" müvafiq ölkədaxili prosesi keçdikdən sonra iyulun 16-da qüvvəyə minir. Sazişə əsasən, iki ölkənin etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları 30 gün müddətinə viza tələbindən azad edilir.

Azərbaycan.-2025.- 16 iyul (№ 144).- S.8.